# ŞƏHİDLƏR

*Abbasov Sabir Rzaqulu oğlu*

*Abbasov Zöhrab Heydərəli oğlu*

*Abbasova Fəridə Nəriman qızı*

*Abdullayev Eyyub Mahmud oğlu*

*Abdullayev Tariyel Hacıbala oğlu*

*Abdullayev Zahid Abdulla oğlu*

*Abduyev Tariyel Oruc oğlu*

*Adilov Musa Ramazan oğlu*

*Ağahüseynov Ağahəsən Yarı oğlu*

*Ağahüseynov Nurəddin Aslan oğlu*

*Ağaverdiyev Aslan Əlikram oğlu*

*Ağayev Şövkət Həsənoviç*

*Alimov Ramis Xarisoviç*

*Allahverdiyev İlham Əjdər oğlu*

*Allahverdiyev Nəriman Əmir oğlu*

*Allahverdiyev Ruslan Kamal oğlu*

*Alməmmədov Teymur Yəhya oğlu*

*Atakişiyev Bəhruz Tofiq oğlu*

*Ağakişiyev Şakir Xandadaş oğlu*

*Babayev Əlövsət Hidayət oğlu*

*Babayev Fuad Yavər oğlu*

***Babayev Rəhim Vaqif oğlu***

***Babayeva Sürəyyə Lətif qızı***

***Bağırov Baloğlan Həbib oğlu***

***Bağırov Telman Malik oğlu***

***Baxşəliyev Elçin Mirzə oğlu***

***Baxşıyev Salman Babaxan oğlu***

***Bayramov İsabala Əli oğlu***

***Bessantina Vera Lvovna***

***Bədəlov Rövşən Seyfulla oğlu***

***Boqdanov Valeriy Zakiroviç***

***Bünyadzadə Ülvi Yusif oğlu***

***Cabbarov Firuz Vəli oğlu***

***Cavanşirov İlkin Zülqədər oğlu***

***Cəfərov Əbülfəz Böyükağa oğlu***

***Durdıyev Anagəldi***

***Eminov Vəfadar Osman oğlu***

***Əbilhəsənov İlqar Yusif oğlu***

***Əbülfətov Mircamal Mirsaleh oğlu***

***Əhmədov İlqar Hümmət oğlu***

***Ələkbərov Azər Nəsib oğlu***

***Ələsgərov Zaur Rasim oğlu***

***Əliyev Əruz Əhmədəli oğlu***

***Əliyev Bayram Mədət oğlu***

***Əliyev Çingiz Mirzəhüseyn oğlu***

*Əliyev Xalqan Yusif oğlu*

*Əliyev Namiq Kamil oğlu*

*Əliyev Rüstəm Şahvələd oğlu*

*Əliyev Zəbulla Xeyrulla oğlu*

*Əliyev Zahid Bayram oğlu*

*Əlizadə Faiq Əbdülhüseyn oğlu*

*Əsədullayev Asif Kamil oğlu*

*Əsgərov Novruz Faiq oğlu*

*Əşrəfov Rəhman İsmixan oğlu*

*Əzizov Habil Komunar oğlu*

*Hacıyev Mübariz Məhəmməd oğlu*

*Həmidov İzzət Atakişi oğlu*

*Həmzəyev Balahüseyn Mirqəzəb oğlu*

*Həsənov Əli Xudaverdi oğlu*

*Həsənov Fuad Əvəz oğlu*

*Həsənov Mehman İbrahim oğlu*

*Həsənov Müzəffər Qəzənfər oğlu*

*Həsənov Sahib Nəsib oğlu*

*Həşimov İsrafil Ağababa oğlu*

*Hüseynov Bəxtiyar Məmməd oğlu*

*Hüseynov Əlimərdan Əbil oğlu*

*Hüseynov Nəriman Vəli oğlu*

*Hüseynov Nizami Polad oğlu*

*Hüseynov Rahib Məmməd oğlu*

*Xammədov Baba Məhəmməd oğlu*

*Xanməmmədov Cəbrayıl Hüseynxan oğlu*

*Xaritonov Vladimir Aleksandroviç*

*İbadzadə Ağamehdi Seyfulla oğlu*

*İbrahimov İbrahim İsmayıl oğlu*

*İbrahimov İlqar Rəşid oğlu*

*İmanov Elçin Beydulla oğlu*

*İsayev Fəxrəddin Xudu oğlu*

*İsayev Müşviq Ağaəli oğlu*

*İsayev Rauf Sultanməcid oğlu*

*İsmayılov Cavad Yunus oğlu*

*İsmayılov Məmmədəli Novruz oğlu*

*İsmayılov Rəşid İslam oğlu*

*İsmayılov Tofiq Babaxan oğlu*

*İsrayılov Ağanəzər Araz oğlu*

*İsmayılov Yusif Tələt oğlu*

*Kazımov Əflatun Həşim oğlu*

*Kərimov Aleksandr Ramazan oğlu*

*Kərimov İlqar İsa oğlu*

*Kərimov Oqtay Ayvaz oğlu*

*Marxevka Aleksandr Vitalyeviç*

*Meyeroviç Yan Maksimoviç*

*Məmmədov Anar Vilen oğlu*

*Məmmədov Eldar Zeynal oğlu*

***Məmmədov Süleyman Fərman oğlu***

***Məmmədov İbiş Behbud oğlu***

***Məmmədov İlham İslam oğlu***

***Məmmədov Kamal Seyidqurban oğlu***

***Məmmədov Mehman Sahibəli oğlu***

***Məmmədov Məmməd Yarməmməd oğlu***

***Məmmədov Rahim Vəliağa oğlu***

***Məmmədov Səxavət Heydər oğlu***

***Məmmədov Şahin Zahid oğlu***

***Məmmədov Vaqif Məmməd oğlu***

***Məmmədov Vidadi Üzeyir oğlu***

***Məmmədova Larisa Fərman qızı***

***Məmmədova Rəna Təyyar qızı***

***Məmmədova Svetlana Həmid qızı***

***Mirzəyev Azad Əliheydər oğlu***

***Mirzəyev Elçin Hüseynqulu oğlu***

***Mirzəyev Vaqif Səməd oğlu***

***Mövlüdov Fuad Fərhad oğlu***

***Muxtarov Rasim Mustafa oğlu***

***Muradov Mehman Əsəd oğlu***

***Mursaqulov İsmayıl Həsən oğlu***

***Musayev Tofiq Ayvaz oğlu***

***Mustafayev Mahir Vaqif oğlu***

***Nəsibov Allahyar İsgəndər oğlu***

***Nəsirov Yanvar Şirəli oğlu***

***Nikolayenko Alla Alekseyevna***

***Nişşenko Andrey Aleksandroviç***

***Novruzbəyli Ağabəy Oqtay oğlu***

***Novruzov Tofiq Heydər oğlu***

***Nuriyev Zahir Zəbi oğlu***

***Orucov Rafiq və Rəfael Ümid oğlu qardaşıarı***

***Orucov Şəmsəddin Əbilhəsən oğlu***

***Poladi Saleh Əliqulu oğlu***

***Qayıbov Ələskər Yusif oğlu***

***Qarayev İlqar Əli oğlu***

***Qasımov Abbas Şamməd oğlu***

***Qasımov Yusif İbrahim oğlu***

***Qeybullayev Elçin Suyəddin oğlu***

***Qəniyev Mirzə Rzabala oğlu***

***Qocamanov Əliyusif Bilal oğlu***

***Quliyev Səxavət Balay oğlu***

***Rəhimov Rəhim İsmayıl oğlu***

***Rəhmanov İslam Oqtay oğlu***

***Rüstəmov Rövşən Məmməd oğlu***

***Rzayev Azad Allahverdi oğlu***

***Sadıqov Yusif Allahverdi oğlu***

***Salahov Şərafəddin Müzəffər oğlu***

***Salayeva Sevda Məmmədağa qızı***

***Semyonov Vladimir Aleksandroviç***

***Səfərov Vəfadar Ağamirzə oğlu***

***Şərifov Mürvət Rəhim oğlu***

***Şıxnəbiyev Məmmədəli Mədət oğlu***

***Tokarev Vladimir İvanoviç***

***Tuxtamışov Fərqat Şərifullayeviç***

***Turabov Tengiz Məmməd oğlu***

***Yaqubov Nüsrət İsmayıl oğlu***

***Yefimiçev Boris Vasilyeviç***

***Yusupov Oleq Kərimoviç***

***Zülalov İsbəndiyar Adil oğlu***

**Abbasov Sabir Rzaqulu oğlu**



Abbasov Sabir Rzaqulu oğlu 1968-ci il Bakı şəhəri, Binə qəsəbəsində anadan olmuşdur. Binə hava limanında satıcı işləyirdi.

Binə qəsəbəsi, Bünyadzadə küçəsi 3, mənzil 22 adlı ünvanda yaşayırdı.

Bu qanlı faciə zamanı – 1990-cı il yanvarın 19-da Binə hava limanı yolunda sovet qoşunları tərəfindən güllələnərək qətlə yetirildi.

Binə kənd qəbiristanlığında dəfn olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona “20 Yanvar şəhidi” adı verilmişdir.

**Abbasov Zöhrab Heydərəli oğlu**



Abbasov Zöhrab Heydərəli oğlu 1970-ci il Bakı şəhərində anadan olmuşdur.

Bakı şəhəri, Abşeron rayonu, Xırdalan qəsəbəsi, 28-ci məhəllə, ev 6, mənzil 24 adlı ünvanda yaşayırdı.

1990-cı il yanvarın 19-da XI Qızıl Ordu meydanında sovet hərbçiləri tərəfindən döyülərək qətlə yetirildi.

Xırdalan qəbiristanlığında dəfn olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona "20 Yanvar şəhidi" adı verilmişdir.

## Abbasova Fəridə Nəriman qızı



Abbasova Fəridə Nəriman qızı 1952-ci il Bakı şəhərində anadan olmuşdur. Ailəli idi.

Bakı şəhəri, 11-ci Giriş küçəsi, ev 1 ünvanında yaşayırdı.

Faciə zamanı, öz evinin həyətində güllələnərək şəhid olmuşdur.

Nardaran qəbiristanlığında dəfn olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona "20 Yanvar şəhidi" adı verilmişdir.

**Abdullayev Eyyub Mahmud oğlu**



Abdullayev Eyyub Mahmud oğlu 1967-ci il Ermənistan SSR, Vedi rayonu, Şidli kəndində anadan olmuşdur. Bakı soyuducular zavodunda fəhlə işləyirdi.

Bakı şəhəri, Xuluflu küçəsi, 28a, mənzil 231 adlı ünvanda yaşayırdı.

“Naxçıvan” mehmanxanası yaxınlığında şəhid olub.

Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona “20 Yanvar şəhidi” adı verilmişdir.

**Abdullayev Tariyel Hacıbala oğlu**



Bu şəxs 25 fevral 1965-ci ildə Lənkəran şəhərində anadan olub. Kalinin adına cihazqayırma zavodunda fəhlə işləyirdi.

Lənkəran şəhəri, Kirov küçəsi 180 ünvanında yaşayırdı.

26 yanvar 1990-cı ildə Lənkərandan Bakıya gətirilərkən vertolyotda boğularaq həlak olub.

Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona “20 Yanvar şəhidi” adı verilmişdir.

**Abduyev Tariyel Oruc oğlu**



1949-cu ildə Şəmkir rayonunun Qaranüy kəndində anadan olmuşdur. Uzun illər Bakı şəhərində yaşamış, 4 nömrəli tikinti idarəsində rəngsaz işləmişdir. Ailə idi.

Bakı şəhəri, 5-ci mikrorayon, Tağızadə küçəsi, ev 38, mənzil 14 ünvanında yaşayırdı.

1990-cı il yanvarın 27-də Bakının XI Qızıl Ordu meydanında sovet qoşunları tərəfindən açılan atəş nəticəsində güllələnmiş, xəstəxanaya çatdırılsa da, orada vəfat etmişdir.

Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona "20 Yanvar şəhidi" adı verilmişdir.

**Abdullayev Zahid Abdulla oğlu**



1959-cu il mart ayının 5-də Xaçmaz rayonunun Yataq-oba kəndində anadan olmuşdur. Əmək fəaliyyətinə Bakı şəhərində – Bakı Elektrik Maşınqayırma Zavodunda fəhlə kimi başlamış və uzun müddət orada çalışmışdır. Ailəli idi.

Bakı şəhəri, Profsoyuznaya küçəsi 97, mənzil 106 ünvanında yaşayırdı.

1990-cı il yanvarın 19-da – sovet ordusunun Azərbaycan xalqına qarşı həyata keçirdiyi qanlı hərbi müdaxilə zamanı – Salyan qışlasının yanında güllələnərək qəhrəmancasına həlak olmuşdur.

Doğulduğu Xaçmaz rayonunun Yataq-oba kəndində dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona “20 Yanvar şəhidi” adı verilmişdir.

**Adilov Musa Ramazan oğlu**



Şabran şəhərində anadan olmuşdur.

Sabunçu qəsəbəsində güllələnmişdir.

Sabunçu xəstəxanasında dünyasını dəyişmişdir.

Azərbaycan Respublikası Prezidentinin 16 may 2017-ci il tarixli fərmanı ilə ona "20 Yanvar şəhidi" adı verilmişdir.

**Ağahüseynov Ağahəsən Yarı oğlu**



1957-ci il aprelin 19-da Bakı şəhərində anadan olmuşdur. Xətai rayonundakı 8 nömrəli elektrik şəbəkəsində elektrik mantyoru işləyirdi. Ailəli idi.

Bakı şəhəri, Yeni Əhmədli qəsəbəsi, Sarayevo küçəsi, ev 18, mənzil 104 ünvanında yaşayırdı.

1990-cı il 20 Yanvar faciəsi zamanı, Salyan qışlasının yaxınlığında sovet qoşunlarının açdığı atəş nəticəsində güllə yarası almış, Topçubaşov adına Eksperimental mikrocərrahiyyə xəstəxanasında vəfat etmişdir.

Bakı şəhəri, Əhmədli qəbiristanlığında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona “20 Yanvar şəhidi” adı verilmişdir.

**Ağahüseynov Nurəddin Aslan oğlu**



1951-ci il dekabrın 15-də Neftçala rayonunun Sovetabad kəndində anadan olmuşdur. 26-lar qəsəbə yeməkxanasında aşpaz işləyirdi. Ailəli idi.

Sovetabad kəndində yaşayırdı.

1990-cı il yanvarın 20-də Neftçala Mərkəzi univermağının qarşısında sovet əsgərləri tərəfindən güllə yarası almış, xəstəxanaya çatdırılsa da, orada vəfat etmişdir.

Neftçala rayonunun Sovetabad kəndində dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona “20 Yanvar şəhidi” adı verilmişdir.

**Ağaverdiyev Aslan Əlikram oğlu**



1952-ci il avqustun 24-də Bakı şəhərində anadan olmuşdur. Çayçı işləyirdi. Ailəli idi.

Bakı şəhəri, Cəfər Cabbarlı küçəsi, ev 54a ünvanında yaşayırdı.

1990-cı il yanvarın 21-də — sovet ordusunun Azərbaycan xalqına qarşı həyata keçirdiyi qanlı hərbi müdaxilə zamanı — Naxçıvan mehmanxanasının qarşısında güllə yarası almış, Nikolay Semaşko adına xəstəxanada vəfat etmişdir.

Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona “20 Yanvar şəhidi” adı verilmişdir.

**Ağayev Şövkət Həsənoviç**



14 dekabr 1936-cı ildə doğulmuşdur. Hakim vəzifəsində işləmişdir. Ailəli idi.

1990-cı il yanvarın 20-də SSRİ qoşunlarının Bakı şəhərinə hərbi müdaxiləsi zamanı şəhid olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 2 avqust 2017-ci il tarixli sərəncamı ilə ona “20 Yanvar şəhidi” adı verilmişdir.

**Alimov Ramis Xarisoviç**



21 iyul 1958-ci ildə Bakı şəhərində anadan olmuşdur. Bakı Boru Kəməri İdarəsində maşın təmiri çilingəri vəzifəsində işləyirdi. Ailəli idi.

Bakı şəhəri, 4-cü mikrorayon, Suvorov küçəsi, ev 216, mənzil 90 ünvanında yaşayırdı.

1990-cı il yanvarın 20-də sovet qoşunlarının Bakı şəhərinə hərbi müdaxiləsi zamanı o, yaralıları xilas edərkən düşmən gülləsinə tuş gələrək qəhrəmancasına həlak olmuşdur.

Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona "20 Yanvar şəhidi" adı verilmişdir.

**Allahverdiyev İlham Əjdər oğlu**



12 iyun 1962-ci ildə Ağdam şəhərində anadan olmuşdur. Bakı şəhərində yerləşən Dadaş Bünyadzadə adına gəmi təmiri zavodunda tornaçı işləyirdi. Ailəli idi.

Bakı şəhəri, 2-ci Alatava, ev 34Q ünvanında yaşayırdı.

1990-cı il yanvarın 20-də sovet ordusunun Bakı şəhərinə hərbi müdaxiləsi zamanı, XI Qızıl Ordu meydanında dinc əhaliyə qarşı açılan atəş nəticəsində güllələnərək şəhid olmuşdur.

Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona "20 Yanvar şəhidi" fəxri adı verilmişdir.

**Allahverdiyeva Fərizə Çoban qızı**

Fərizə həyat yoldaşının ölüm xəbərindən sarsılaraq intihar etmişdir.

**Allahverdiyev Nəriman Əmir oğlu**



1959-cu ildə Laçın rayonunun Narışlar kəndində anadan olmuşdur. Ailəli idi.

1990-cı il 20 Yanvar hadisələri zamanı şəhid olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona "20 Yanvar şəhidi" fəxri adı verilmişdir.

**Allahverdiyev Ruslan Kamal oğlu**



10 aprel 1967-ci ildə Ucar rayonunun Musüslü kəndində anadan olmuşdur. Bakı şəhərində yerləşən Şampan zavodunda fəhlə işləyirdi.

Bakı şəhəri, Abşeron rayonu, Sulu təpə qəsəbəsi, E. Telman küçəsi, ev 25 ünvanında yaşayırdı.

1990-cı il yanvarın 20-də sovet ordusunun Bakı şəhərinə hərbi müdaxiləsi zamanı Salyan qışlası yaxınlığında iki güllə yarası almış, daha sonra onun üzərindən tank keçmiş və amansız şəkildə şəhid olmuşdur.

Xırdalan qəsəbəsində dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona “20 Yanvar şəhidi” fəxri adı verilmişdir.

**Alməmmədov Teymur Yəhya oğlu**



1972-ci ildə Naxçıvan MSSR-in Şahbuz rayonunun Keçili kəndində anadan olmuşdur. N. Nərimanov adına Azərbaycan Tibb Universitetinin tələbəsi idi.

1990-cı il yanvarın 20-də sovet ordusunun Bakı şəhərinə hərbi müdaxiləsi zamanı Aerokassanın qarşısında güllə yarası almış, vəziyyəti ağır olduğuna görə 4 nömrəli klinik xəstəxanaya yerləşdirilmişdir. Göstərilən tibbi yardımlara baxmayaraq, 31 yanvar 1990-cı il tarixində vəfat etmişdir.

Şahbuz rayonunun Keçili kəndində dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona “20 Yanvar şəhidi" fəxri adı verilmişdir.

**Atakişiyev Bəhruz Tofiq oğlu**



1961-ci ildə Bakı şəhərində anadan olmuşdur. Peşəsi sürücü idi.

Bakı şəhəri, Naxçıvani küçəsi, ev 6, mənzil 3 ünvanında yaşayırdı.

1990-cı il yanvarın 21-də sovet qoşunlarının Bakı şəhərinə hərbi müdaxiləsi zamanı "Gənclik" metro stansiyası yaxınlığında güllə yarası almışdır. O, 5 nömrəli xəstəxanaya yerləşdirilmiş, lakin həkimlərin səylərinə baxmayaraq həyatını xilas etmək mümkün olmamışdır və həmin gün şəhid olmuşdur.

Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona "20 Yanvar şəhidi" fəxri adı verilmişdir.

**Ağakişiyev Şakir Xandadaş oğlu**



31 yanvar 1961-ci ildə Abşeron rayonu, Sitalçay kəndində anadan olmuşdur. Sumqayıt qaz idarəsində çilingər işləyirdi. Ailəli idi.

Sumqayıt şəhəri, Hacı Zeynalabdin Tağıyev qəsəbəsi (Nasoslu), ev 63 ünvanında yaşayırdı.

20 Yanvar hadisələri zamanı yaralanmış və 21 yanvar 1990-cı ildə Xırdalan pivə zavodunun yanında güllələnmişdir. Yaralı vəziyyətdə N. Semaşko adına xəstəxanaya aparılmış, burada dünyasını dəyişmişdir.

Şəhidlər xiyabanında dəfn olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona “20 Yanvar şəhidi” adı verilmişdir.

**Babayev Əlövsət Hidayət oğlu**

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona “20 Yanvar şəhidi” adı verilmişdir.

**Babayev Fuad Yavər oğlu**



1967-ci ildə Bakı şəhərində anadan olmuşdur. Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun tələbəsi idi.

Bakı şəhəri, Talıblı küçəsi 318, mənzil 79 ünvanında yaşayırdı.

20 yanvar 1990-cı ildə XI Qızıl Ordu meydanında güllələnərək həlak olmuşdur.

Səhidlər Xiyabanında dəfn olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona “20 Yanvar şəhidi” adı verilmişdir.

**Babayev Rəhim Vaqif oğlu**



1970-ci il dekabrın 5-də Ordubad rayonunda anadan olmuşdur. M. Əzizbəyov adına Azərbaycan Sənaye Universitetinin tələbəsi idi.

Bakı şəhəri, 2-ci mikrorayon, T. Əliyev küçəsi, ev 15, mənzil 120 ünvanında yaşayırdı.

1990-cı il yanvar hadisələri zamanı Salyan qışlasında ağır yaralanmış, daha sonra yerləşdirildiyi Semaşko xəstəxanasında vəfat etmişdir.

Səhidlər Xiyabanında dəfn olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona "20 Yanvar şəhidi" adı verilmişdir.

**Babayeva Sürəyyə Lətif qızı**



1913-cü ildə İmişli şəhərində anadan olmuşdur. Təqaüdçü idi, ailəli idi.

Bakı şəhəri, Biləcəri qəsəbəsi, Tbilisi şosesi, ev 1a, mənzil 29 ünvanında yaşayırdı.

1990-cı il yanvarın 22-də yaşadığı evdə – Bakı şəhəri, Biləcəri qəsəbəsində yerləşən ünvanında güllələnərək qətlə yetirilmişdir.

Doğulduğu İmişli şəhərində dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona "20 Yanvar şəhidi" adı verilmişdir.

**Bağırov Baloğlan Həbib oğlu**



29 yanvar 1966-cı ildə Bakı şəhərinin Maştağa qəsəbəsində anadan olmuşdur. Azərquşsənaye Birliyinin baytarlıq laboratoriyasında işləyirdi. Ailəli idi.

Maştağa qəsəbəsi, Məktəb küçəsi 115 ünvanında yaşayırdı.

1990-cı il yanvarın 29-da Tbilisi prospektində güllə yarası almış, yerləşdirildiyi xəstəxanada vəfat etmişdir.

Şəhid Səhidlər xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona "20 Yanvar şəhidi" adı verilmişdir.

**Bağırov Telman Malik oğlu**



1960-cı ildə anadan olmuşdur. 20 Yanvar faciəsi baş verən zaman 26 Bakı komissarı rayon milis şöbəsində kiçik serjant vəzifəsində çalışırdı. Ailəli idi.

Bakı şəhəri, İçərişəhər, 2-ci döngə, ev 14, mənzil 3 ünvanında yaşayırdı.

1990-cı il yanvarın 20-də “Dostluq” kinoteatrının yaxınlığında güllələnərək şəhid olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona “20 Yanvar şəhidi” adı verilmişdir.

**Baxşəliyev Elçin Mirzə oğlu**



12 fevral 1965-ci ildə Bakı şəhərində anadan olmuşdur. 20 Yanvar hadisələri zamanı 2 nömrəli avtobus parkında sürücü işləyirdi.

Bakı şəhəri, Ə. Ələkbərov küçəsi 24 ünvanında yaşayırdı.

1990-cı il yanvarın 20-də 2 nömrəli taksi maşınları parkının yaxınlığında güllə yarası almış, yerləşdirildiyi N. Semaşko adına xəstəxanada vəfat etmişdir.

Şəhid Abşeron rayonu, Şurabad kənd qəbiristanlığında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona “20 Yanvar şəhidi” adı verilmişdir.

**Baxşıyev Salman Babaxan oğlu**



1 mart 1949-cu ildə Lənkəran şəhərində anadan olmuşdur. Lənkəran şəhər qarışıq mallar ticarəti idarəsində işləyirdi. Ailəli idi.

Lənkəran şəhəri, Füzuli küçəsi, dalan 2, ev 8 ünvanında yaşayırdı.

26 yanvar 1990-cı ildə qardaşı ilə birlikdə meşədə olarkən helikopterdən atəşə tutulmuşdur. Güllə boyun nahiyəsinə dəymişdir. Hadisə yerində həlak olmuşdur.

Lənkəran şəhərində dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona "20 Yanvar şəhidi" adı verilmişdir

**Bayramov İsabala Əli oğlu**



1967-ci ildə Ermənistan SSR-in Quqark rayonunda anadan olmuşdur. Ailəli idi.

Bakı şəhəri, K. Marks prospekti, ev 21 ünvanında yaşayırdı.

1990-cı il yanvarın 20-də Bakıda — XI Qızıl Ordu meydanında güllələnərək şəhid olmuşdur.

Şəhid Səhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona “20 Yanvar şəhidi” adı verilmişdir.

## Bessantina Vera Lvovna



1973-cü ildə anadan olmuşdur. 258 nömrəli orta məktəbin şagirdi idi.

Bakı şəhəri, Naximov küçəsi 29, mənzil 94 ünvanında yaşayırdı.

1990-cı il yanvarın 20-də Salyan qışlası ilə üzbəüz binanın qarşısında güllələnərək şəhid olmuşdur.

Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona “20 Yanvar şəhidi” adı verilmişdir.

**Bədəlov Rövşən Seyfulla oğlu**



25 sentyabr 1965-ci ildə Lənkəran şəhərində anadan olmuşdur.

Lənkəran şəhəri, Tereşkova küçəsi, ev 17, mənzil 2 ünvanında yaşayırdı.

1990-cı il yanvarın 26-da Hoftoni kəndindən Kirov kəndinə gedən yolda güllələnərək şəhid olmuşdur.

Lənkəran şəhərindəki Şəhidlər qəbiristanlığında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona "20 Yanvar şəhidi" adı verilmişdir.

**Boqdanov Valeriy Zakiroviç**



24 mart 1958-ci ildə Gəncə şəhərində anadan olmuşdur. Milis leytenantı rütbəsində xidmət edirdi. Ailəli idi.

Bakı şəhəri, Bəhmən Dadaşov küçəsi, ev 26, mənzil 5 ünvanında yaşayırdı.

1990-cı il yanvarın 20-də Tbilisi prospektində güllələnərək şəhid olmuşdur.

Doğulduğu Gəncə şəhərində dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona "20 Yanvar şəhidi" adı verilmişdir.

**Bünyadzadə Ülvi Yusif oğlu**



1969-cu il 23 sentyabrda Ermənistan SSR-in Basarkeçər rayonu, Kəsəmən kəndində anadan olmuşdur. Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutunun tələbəsi idi.

Bakı şəhəri, Anaşkin küçəsi, ev 12, mənzil 7 ünvanında yaşayırdı.

1990-cı il yanvarın 20-də XI Qızıl Ordu meydanında güllələnərək şəhid olmuşdur.

Səhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona “20 Yanvar şəhidi” adı verilmişdir.

**Cabbarov Firuz Vəli oğlu**

Kəlbəcər rayonunda anadan olmuşdur.

O, 1990-cı ilin 20 Yanvar faciəsi zamanı həlak olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 6 fevral 2008-ci il tarixli Fərmanı ilə ona “20 Yanvar şəhidi” adı verilmişdir.

**Cavanşirov İlkin Zülqədər oğlu**



1933-cü il sentyabrın 30-da Kəlbəcər rayonunda anadan olmuşdur. 2 nömrəli taksi maşınları parkında sürücü işləyirdi. Ailəli idi.

Bakı şəhəri, Qorki küçəsi 7, mənzil 16 ünvanında yaşayırdı.

1990-cı il yanvarın 23-də Bakı şəhərində Sovet ordusunun dinc əhaliyə qarşı həyata keçirdiyi hərbi təcavüz zamanı Avtovağzal rayonu ərazisində güllələnərək ağır yaralanmış və N. Semaşko adına təcili yardım xəstəxanasında vəfat etmişdir.

Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona “20 Yanvar şəhidi” adı verilmişdir.

**Cəfərov Əbülfəz Böyükağa oğlu**



1966-cı il Neftçala rayonu, Bankə qəsəbəsində anadan olmuşdur. Bankə qəsəbəsində balıq ovlayan gəmidə işləyirdi.

1990-cı il yanvar ayında Neftçala Xalq Cəbhəsinin binası qarşısında güllələnərək yaralanmış, Bakıya gətirilərkən təyyarədə vəfat etmişdir

Neftçala rayonunda dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona "20 Yanvar şəhidi" adı verilmişdir.

## Durdıyev Anagəldi

Azərbaycan tarixinə Qara Yanvar kimi daxil olmuş faciəli günlərdə həlak oldu.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona “20 Yanvar şəhidi” adı verilmişdir.

**Eminov Vəfadar Osman oğlu**



1 may 1966-cı ildə Borçalı mahalının Kirəc-Muğanlı kəndində anadan olmuşdur. Bakı Dövlət Universitetinin tələbəsi olmaqla yanaşı, 1 nömrəli tikiş fabrikində fəhlə işləyirdi.

Bakı şəhəri, Lenin prospekti 146a ünvanında yaşayırdı.

1990-cı il yanvarın 21-də, Sovet ordusunun Azərbaycan xalqına qarşı həyata keçirdiyi qanlı hücum zamanı "Olimp" mağazası yaxınlığında güllə yarası almış və Qədirli adına xəstəxanada vəfat etmişdir.

Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona "20 Yanvar şəhidi" adı verilmişdir.

**Əbilhəsənov İlqar Yusif oğlu**



19 avqust 1967-ci ildə Bakı şəhərində anadan olmuşdur. O, Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun tələbəsi olmaqla yanaşı, Bakının Oktyabr Rayon Daxili İşlər Şöbəsində kiçik serjant kimi xidmət edirdi.

Bakı şəhərində, Qoqol küçəsi, ev 96a, mənzil 3 ünvanında yaşayırdı.

1990-cı il yanvarın 22-də baş vermiş qanlı 20 Yanvar hadisələri zamanı "Naxçıvan" mehmanxanasının yaxınlığında güllə yarası alaraq ağır şəkildə yaralanmış və xəstəxanada şəhid olmuşdur.

Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona "20 Yanvar şəhidi" adı verilmişdir.

**Əbülfətov Mircamal Mirsaleh oğlu**



17 dekabr 1958-ci ildə Lənkəran şəhərində anadan olmuşdur. O, Lənkəran şəhərlərarası yükdaşıma idarəsində fəhlə işləyirdi. Ailəli idi.

Lənkəran şəhəri, Əli Bayramov küçəsi 280 ünvanında yaşayırdı.

1990-cı il yanvarın 20-də Sovet ordusunun Bakı şəhərinə qanlı müdaxiləsi zamanı XI Qızıl Ordu meydanında güllələnərək şəhid olmuşdur.

Doğulduğu Lənkəran şəhərində dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona “20 Yanvar şəhidi” adı verilmişdir.

**Əhmədov İlqar Hümmət oğlu**



25 may 1965-ci ildə Gürcüstan SSR-in Borçalı mahalının Faxralı kəndində anadan olmuşdur. Ç. İldırım adına Azərbaycan Politexnik İnstitutunun tələbəsi idi.

Bakı şəhərində, Şərifzadə küçəsi 1 ünvanında yaşayırdı.

1990-cı il yanvarın 20-də Sovet ordusunun Bakıya hərbi müdaxiləsi zamanı Salyan qışlasının yaxınlığında güllə ilə vurularaq şəhid olmuşdur.

Gürcüstan SSR, Borçalı mahalının Faxralı kəndində dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona “20 Yanvar şəhidi” fəxri adı verilmişdir.

**Ələkbərov Azər Nəsib oğlu**



1967-ci ildə Bakı şəhərində anadan olmuşdur. Azərbaycan Dövlət İncəsənət Universitetinin tələbəsi idi.

Bakı şəhərində, İnşaatçılar prospekti, 583-cü kvartal, ev 1, mənzil 9 ünvanında yaşayırdı.

1990-cı il yanvarın 20-də baş vermiş qanlı 20 Yanvar hadisələri zamanı şəhid olmuşdur.

Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona "20 Yanvar şəhidi" adı verilmişdir.

**Ələsgərov Zaur Rasim oğlu**



1969-cu ildə Bakı şəhərində anadan olmuşdur. 2 nömrəli texniki-peşə məktəbini maşinist köməkçisi ixtisası üzrə bitirmişdir.

Bakı şəhəri, 6-cı mikrorayon, S. Lazo küçəsi, ev 203, mənzil 23 ünvanında yaşayırdı.

1990-cı il yanvarın 20-də baş vermiş qanlı 20 Yanvar hadisələri zamanı güllələnərək şəhid olmuşdur.

Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona "20 Yanvar şəhidi" fəxri adı verilmişdir.

**Əliyev Bayram Mədət oğlu**



7 iyul 1950-ci ildə Ermənistan SSR-in Kalinino rayonunun Qızıldaş kəndində anadan olmuşdur. 2 nömrəli evtikmə kombinatında icraçı işləyirdi. Ailəli idi.

Bakı şəhəri, Xutor, 7-ci cərgə, ev 18a ünvanında yaşayırdı.

1990-cı il yanvarın 19-da baş vermiş qanlı 20 Yanvar hadisələri zamanı güllələnərək şəhid olmuşdur.

Qurd Qapısı qəbiristanlığında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona “20 Yanvar şəhidi” adı verilmişdir.

**Əliyev Çingiz Mirzəhüseyn oğlu**

1990-cı il yanvarın 20-də baş vermiş qanlı 20 Yanvar hadisələri zamanı güllələnərək şəhid olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona “20 Yanvar şəhidi” adı verilmişdir.

**Əliyev Əruz Əhmədəli oğlu**

1990-cı il yanvarın 20-də baş vermiş qanlı 20 Yanvar hadisələri zamanı güllələnərək şəhid olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona "20 Yanvar şəhidi" adı verilmişdir.

**Əliyev Xəlqan Yusif oğlu**



31 avqust 1969-cu ildə Bakı şəhərində anadan olmuşdur. "İskra" zavodunda dülgər işləyirdi.

Bakı şəhəri, Tbilisi prospekti, 75a, mənzil 40 ünvanında yaşayırdı.

1990-cı il yanvarın 20-də Sovet ordusunun qanlı müdaxiləsi zamanı "İskra" zavodunun qarşısında güllələnərək şəhid olmuşdur.

Şəhidlər xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona "20 Yanvar şəhidi" adı verilmişdir.

**Əliyev Namiq Kamil oğlu**



19 iyul 1965-ci ildə Bakı şəhərində anadan olmuşdur. “Zümrüd” restoranında aşpaz işləyirdi.

Bakı şəhəri, P. Lumumba küçəsi, ev 43 ünvanında yaşayırdı.

1990-cı il yanvarın 22-də baş verən qanlı 20 Yanvar hadisələri zamanı güllələnərək N. Semaşko adına xəstəxanada şəhid olmuşdur.

Şəhidlər xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona “20 Yanvar şəhidi” adı verilmişdir.

**Əliyev Rüstəm Şahvələd oğlu**



11 iyun 1965-ci ildə Bakı şəhərində anadan olmuşdur. 2 nömrəli avtobus parkında sürücü işləyirdi.

Bakı şəhəri, 19-cu Dağüstü küçəsi, ev 20a, mənzil 38 ünvanında yaşayırdı.

1990-cı il yanvarın 25-də Sovet ordusunun qanlı müdaxiləsi zamanı Salyan qışlasının yanında güllələnərək ağır yaralanmış, xəstəxanada vəfat etmişdir.

Şəhidlər xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona “20 Yanvar şəhidi” adı verilmişdir.

**Əliyev Zəbbulla Xeyrulla oğlu**



1946-cı ilin 6 martında Sabirabad rayonunun Kürkənd kəndində anadan olmuşdur. Uzun illər 1 nömrəli tikiş fabrikində sürücü işləyirdi. Ailəli idi.

Bakı şəhərinin 5-ci Yasamal rayonunda, ev 149a ünvanında yaşayırdı.

20 Yanvar 1990-cı il tarixində XI Qızıl Ordu meydanında baş vermiş faciə zamanı güllələnərək şəhid olmuşdur.

Doğulduğu Sabirabad rayonunun Kürkənd kəndində dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona "20 Yanvar şəhidi" adı verilmişdir.

**Əliyev Zahid Bayram oğlu**



1963-cü ildə Ermənistan SSR-in Vedi rayonu, Şidli kəndində anadan olmuşdur. Orconikidze rayonundakı 1 nömrəli mağazada satıcı işləyirdi. Ailəli idi.

Bakı şəhərinin Orconikidze rayonunda, 3-cü mədən, ev 43 ünvanında yaşayırdı.

20 Yanvar 1990-cı il tarixində Suraxanı döngəsində baş vermiş faciə zamanı güllələnərək həlak olmuşdur.

Şəhidlər xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona “20 Yanvar şəhidi” adı verilmişdir.

**Əlizadə Faiq Əbdülhüseyn oğlu**



1953-cü il yanvarın 10-da Ağcabədi rayonunda anadan olmuşdur. Binəqədi rayon təmir-tikinti idarəsində fəhlə işləyirdi. Ailəli idi.

Bakı şəhərinin 7-ci mikrorayonunda, Axundov küçəsi, ev 6, mənzil 88 ünvanında davam etdirirdi.

19 yanvar 1990-cı ildə Gənclik metrostansiyasının yaxınlığında baş vermiş hadisələr zamanı güllələnərək şəhid olmuşdur.

Şəhidlər xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona "20 Yanvar şəhidi" adı verilmişdir.

**Əsədullayev Asif Kamil oğlu**



1952-ci il yanvarın 12-də Lənkəran şəhəri, Şaqlaser kəndində anadan olmuşdur. "Bakı fəhləsi" adına maşınqayırma zavodunda tokar işləyirdi. Ailəli idi.

Bakı şəhərinin Sabunçu qəsəbəsində, Dzerjinski küçəsi, mənzil 25 ünvanında yaşayırdı.

20 Yanvar 1990-cı ildə Ramana kəndi yaxınlığında baş vermiş hadisələr zamanı güllələnərək şəhid olmuşdur.

Doğulduğu Lənkəran şəhəri, Şaqlaser kəndində dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona "20 Yanvar şəhidi" adı verilmişdir.

**Əsgərov Novruz Faiq oğlu**



1968-ci ildə Bakı şəhərində anadan olmuşdur. Tikinti kooperativində işləyirdi.

Bakı şəhərinin 8-ci kilometrində, Darvin küçəsi 65, mənzil 29 ünvanında yaşayırdı.

20 Yanvar 1990-cı ildə Əzizbəyov metrostansiyasının yaxınlığında baş vermiş faciə zamanı güllələnərək şəhid olmuşdur.

Bakı şəhərinin Əhmədli qəsəbəsində dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona "20 Yanvar şəhidi" adı verilmişdir.

**Əşrəfov Rəhman İsmixan oğlu**



1955-ci il mayın 22-də Bakı şəhərinin Binə qəsəbəsində anadan olmuşdur. Binədə yerləşən 29 nömrəli xəstəxanada sürücü işləyirdi. Ailəli idi.

Bakı şəhəri, Binə qəsəbəsi, Bünyadzadə küçəsi, döngə 3, ev 10 ünvanında yaşayırdı.

1990-cı il yanvarın 20-də gecə saatlarında o, yaralıları öz iş maşını "Moskvich" ilə daşıdığı zaman yaralanmışdır. Alınan xəsarətlərdən yanvarın 24-də Neyrocərrahiyə xəstəxanasında vəfat etmişdir. O, odlu silah yarasından həlak olmuşdur.

Nardaran kəndində dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona "20 Yanvar şəhidi" adı verilmişdir.

**Əzizov Habil Komunar oğlu**



1968-ci il yanvarın 19-da Qazax rayonunun Kalinin kəndində anadan olmuşdur. Azərbaycan İqtisad İnstitutunun III kurs tələbəsi idi.

Bakı şəhərində, 14-cü Dağlıq küçəsi, dalan 6, mənzil 27 ünvanında yaşayırdı.

1990-cı il yanvarın 19-da Salyan qışlasının yaxınlığında güllələnərək şəhid olmuşdur.

Qazax rayonunun Kalinin kəndində dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona "20 Yanvar şəhidi" adı verilmişdir.

## Hacıyev Mübariz Məhəmməd oğlu



11 mart 1952-ci ildə Ucar rayonunda anadan olmuşdur. Bakı şəhərində yerləşən 5 nömrəli taksimotor parkında sürücü işləyirdi. Ailəli idi.

Bakı şəhərində, M.A. Əliyev küçəsi, döngə 17, ev 2, mənzil 3 ünvanında yaşamışdır.

1990-cı il yanvarın 19-da XI Qızıl Ordu meydanında sovet əsgərinin açdığı atəş nəticəsində həlak olmuşdur.

Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona "20 Yanvar şəhidi" adı verilmişdir.

**Həmidov İzzət Atakişi oğlu**



5 dekabr 1930-cu ildə anadan olmuşdur. Yer Quruluşu Layihə İnstitutunda işləyirdi. Ailəli idi.

Bakı şəhərində, Lenin prospekti 97, mənzil 20 ünvanında yaşayırdı.

1990-cı il yanvarın 22-də, Sovet qoşunlarının Azərbaycanın dinc əhalisinə qarşı həyata keçirdiyi qanlı hərbi müdaxilə zamanı Salyan qışlasının yaxınlığında güllələnərək şəhid olmuşdur.

Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona “20 Yanvar şəhidi” fəxri adı verilmişdir.

## Həmzəyev Balahüseyn Mirqəzəb oğlu



1929-cu ildə Bakı şəhərində anadan olmuşdur. 2704 nömrəli avtomobil dəstəsində sürücü işləyirdi. Ailəli idi.

Bakı şəhərinin Yeni Suraxanı qəsəbəsi, Oktyabr küçəsi 20 ünvanında yaşayırdı.

1990-cı il 20 Yanvar faciəsi zamanı Yeni Suraxanıda güllələnərək yaralanmış, martın 24-də vəfat etmişdir.

Yeni Suraxanı qəsəbəsində dəfn olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona “20 Yanvar şəhidi” adı verilmişdir.

**Həsənov Əli Xudaverdi oğlu**



7 sentyabr 1957-ci ildə Bakı şəhərində anadan olmuşdur. Meliorasiya Su Tikinti İdarəsində sürücü işləyirdi. Ailəli idi.

Bakı şəhərinin İnqilab küçəsi 92, mənzil 15 ünvanında yaşayırdı.

1990-cı il yanvarın 20-də baş verən qanlı hadisələr zamanı güllələnərək N. Semaşko adına xəstəxanada vəfat etmişdir.

Şəhidlər xiyabanında dəfn olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona “20 Yanvar şəhidi” adı verilmişdir.

**Həsənov Fuad Əvəz oğlu**



11 iyul 1971-ci ildə anadan olmuşdur.

20 Yanvar faciəsi zamanı şəhid olmuşdur.

Şəhidlər xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 28 yanvar 2002-ci il tarixli sərəncamı ilə ona “20 Yanvar şəhidi” fəxri adı verilmişdir.

**Həsənov Mehman İbrahim oğlu**



Bakı şəhərində anadan olmuşdur. Tikinti Materialları Sənayesi Nazirliyinin məlumat-hesablama mərkəzində işləyirdi. Ailəli idi.

Bakı şəhəri, 2-ci mikrorayon, Cəbiyev küçəsi, ev 27, mənzil 44 ünvanında yaşayırdı.

20 yanvar 1990-cı il tarixində XI Qızıl Ordu meydanında şəhid olmuşdur.

Şəhidlər Xiyabanına dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona "20 Yanvar şəhidi" adı verilmişdir.

**Həsənov Müzəffər Qəzənfər oğlu**



5 fevral 1939-cu ildə Qubanın Yerfi kəndində doğulmuşdu. Bakı şəhərində yaşayıb, tikinti-quraşdırma trestinin avtobazasında sürücü işləyirdi. Ailəli idi.

Bakı şəhərində, 1-ci Alatava küçəsi, 134 nömrəli evdə yaşamışdır.

1990-cı ildə baş vermiş qanlı 20 Yanvar hadisələri zamanı rezin dəyənəklə amansızcasına döyülmüş və güllələnmişdir. Aldığı ağır xəsarətlər nəticəsində 1990-cı il yanvarın 29-da N. Semaşko adına xəstəxanada vəfat etmişdir.

Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona “20 Yanvar şəhidi” adı verilmişdir.

**Həsənov Sahib Nəsib oğlu**



1949-cu ildə Azərbaycanın Gədəbəy rayonunda anadan olmuşdur. Bakının Məşədi Əzizbəyov (indiki Azadlıq) meydanı yaxınlığında yerləşən qəzet köşkündə satıcı işləyirdi. Ailəli idi.

Bakı şəhəri, Kışlı qəsəbəsi, Zakir küçəsi, 9 nömrəli evdə yaşamışdır.

1990-cı il yanvarın 20-də İnşaatçılar prospektindəki yanğınsöndürmə məntəqəsinin qarşısında sovet əsgərləri tərəfindən güllələnərək qətlə yetirilmişdir.

Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona “20 Yanvar şəhidi” fəxri adı verilmişdir.

**Həşimov İsrafil Ağababa oğlu**



3 aprel 1964-cü ildə Bakı şəhərində anadan olmuşdur. Azərittifaq sistemində satıcı işləyirdi. Ailəli idi.

Bakı şəhəri, 9-cu mikrorayon, 131-ci binada yerləşən mənzil 26-da yaşayırdı.

1990-cı il yanvarın 20-də Bakıya yeridilmiş sovet qoşunlarının törətdiyi qırğın zamanı o da şəhid olmuşdur. XI Qızıl Ordu meydanında sovet əsgərləri tərəfindən güllələnərək qətlə yetirilmişdir.

Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona “20 Yanvar şəhidi” fəxri adı verilmişdir.

**Hüseynov Bəxtiyar Məmməd oğlu**

Ermənistanın Meğri rayonunda anadan olub.

Salyan qışlası yaxınlığında güllələnmişdir və aldığı xəsarətin fəsadları nəticəsində 2001-ci il yanvarın 16-sı vəfat etmişdir.

Azərbaycan Respublikası Prezidentinin 28 yanvar 2002-ci il tarixli sərəncam ilə ona "20 Yanvar şəhidi" fəxri adı verilmişdir.

## Hüseynov Əlimərdan Əbil oğlu



O, 14 yanvar 1962-ci ildə Biləsuvar rayonunda anadan olmuşdur. Peşəkar elektrik montyoru kimi Azərelektroterm elm-istehsal birliyində işləyirdi.

Bakı şəhərində 116, 7-ci mikrorayon, yataqxana 2, otaq 133 ünvanında yaşayırdı.

20 yanvar 1990-cı il gecəsi, Salyan qışlasının yaxınlığında sovet ordusunun atəşi nəticəsində güllələnərək həlak olmuşdur.

Biləsuvar rayonunun Fioletovka kəndində dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona “20 Yanvar şəhidi” fəxri adı verilmişdir.

**Hüseynov Nəriman Vəli oğlu**



1975-ci ildə Tovuz rayonunun Xatanlı kəndində doğulmuşdur.

42 nömrəli məktəbin VIII sinif şagirdi idi. Bakı şəhərində, Əlizadə küçəsi 126 ünvanında yaşayırdı.

20 yanvar 1990-cı il gecəsi, Salyan qışlasının yaxınlığında sovet ordusunun amansız atəşi nəticəsində güllələnərək şəhid olmuşdur.

Şəhidlər xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona “20 Yanvar şəhidi” fəxri adı verilmişdir.

**Hüseynov Nizami Polad oğlu**



1 aprel 1957-ci ildə Laçın rayonunun Minkənd kəndində anadan olmuşdur. Ailəli idi.

1990-cı ilin yanvar ayında sovet ordusunun Azərbaycana qarşı həyata keçirdiyi qanlı hərbi müdaxilə zamanı işdən evə dönərkən tankla maşının toqquşması nəticəsində şəhid olmuşdur.

Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 6 fevral 2008-ci il tarixli fərmanı ilə ona “20 Yanvar şəhidi” adı verilmişdir.

**Hüseynov Rahib Məmməd oğlu**



1939-cu il Qubada anadan olmuşdur. Ailəli idi.

Quba rayonunun Cəfər Cabbarlı küçəsi 11 ünvanında yaşayırdı.

Salyan qışlasının yaxınlığında sovet qoşunlarının açdığı atəş nəticəsində güllələnərək şəhid olmuşdur.

Doğulduğu və yaşadığı Quba rayonunda dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona “20 Yanvar şəhidi” adı verilmişdir.

**Xammədov Baba Məhəmməd oğlu**



1 iyul 1939-cu il tarixində anadan olmuşdur. 84 nömrəli texniki-peşə məktəbinin fizika müəllimi idi. Ailəli idi.

Bakı şəhəri, Biləcəri qəsəbəsi, Tbilisi şossesi, ev 11 ünvanında yaşayırdı.

1990-cı il yanvarın 21-də — faciədən bir gün sonra Dəmiryol Xəstəxanasında aldığı güllə yarası nəticəsində şəhid olmuşdur.

Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona “20 Yanvar şəhidi” adı verilmişdir.

**Xanməmmədov Cəbrayıl Hüseynxan oğlu**



1939-cu ildə Bakı şəhəri, Suraxanı rayonunda anadan olmuşdur. Uzun illər Bakı kanalizasiya idarəsində fəhlə işləyirdi.

Bakı şəhəri, Hövsan qəsəbəsi, Sahil küçəsi, ev 33, mənzil 23-də yaşayırdı.

Suraxanı qəsəbəsində güllə yarası almış və Caparidze adına xəstəxanada vəfat etmişdir.

Yeni Suraxanı qəbiristanlığında dəfn olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona “20 Yanvar şəhidi” adı verilmişdir.

**Xaritonov Vladimir Aleksandroviç**



1949-cu ildə Rusiya Federasiyasının Saratov şəhərində dünyaya gəlmişdir. Ömrünün bir hissəsini Azərbaycanda – Bakıda hərbi qulluqçu kimi çalışaraq, xidmət etmişdir. Ailəli idi.

1990-cı ilin fevral ayının 8-də – 20 Yanvar faciəsindən sonra baş verən hadisələr zamanı Dərnəgül körpüsünün yaxınlığında güllə yarası alaraq həlak olmuşdur.

Saratov şəhərində dəfn olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona "20 Yanvar şəhidi" fəxri adı verilmişdir.

**İbadzadə Ağamehdi Seyfulla oğlu**



BAQES sistemində elektro-montyor işləyirdi.

Azərbaycan Respublikası Prezidentinin 6 fevral 2008-ci il tarixli fərmanı ilə ona “20 Yanvar şəhidi” fəxri adı verilmişdir.

**İbrahimov İbrahim İsmayıl oğlu**



1928-ci il oktyabrın 10-da Naxçıvan şəhərində anadan olmuşdur. Azərbaycan Elmlər Akademiyasının "Karbonil birləşmələr" laboratoriyasının rəhbəri olmuşdur. Ailəli idi.

20 Yanvar faciəsi zamanı, 1990-cı ilin yanvar ayının 24-də, Bakı-Sumqayıt yolunun 22-ci kilometrliyində zirehli maşının yolun kənarında dayanan "Jiquli" markalı maşının üstündən keçməsi nəticəsində qəza baş vermişdir və o, bu hadisə zamanı həyatını itirmişdir.

Şəhidlər xiyabanında dəfn olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona "20 Yanvar şəhidi" fəxri adı verilmişdir.

**İbrahimov İlqar Rəşid oğlu**



1976-cı il oktyabrın 13-də Bakı şəhərində anadan olmuşdur. 167 nömrəli məktəbin 7a sinif şagirdi idi.

Ailəsi ilə birgə Bakı şəhəri, 19-cu Xrebtovı küçəsində yaşayırdı.

1990-cı il yanvarın 20-də Qızıl Ordu meydanında baş verən qanlı hadisələr zamanı sovet hərbçiləri tərəfindən güllələnərək qətlə yetirilmişdir.

Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona "20 Yanvar şəhidi" fəxri adı verilmişdir.

**İmanov Elçin Beydulla oğlu**



1967-ci il avqustun 12-də Əli Bayramlı şəhərində (indiki Şirvan) anadan olmuşdur. Azərbaycan Tibb Universitetinin stomatologiya fakültəsinin 4-cü kurs tələbəsi idi.

Əli Bayramlı şəhəri, Səməd Vurğun küçəsi 9, mənzil 3 ünvanında yaşayırdı.

Bakıda, Leytenant Şmidt adına zavodun mədəniyyət evinin qarşısında güllə atəşi nəticəsində şəhid olmuşdur.

Salyan rayonunda dəfn olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona "20 Yanvar şəhidi" fəxri adı verilmişdir.

**İsayev Fəxrəddin Xudu oğlu**



1963-cü il martın 21-də Bakı şəhərində anadan olmuşdur. Cənubi geologiya idarəsində sürücü işləyirdi. Ailəli idi.

Bakı şəhəri, Biləcəri qəsəbəsi, Y. Hüseynov küçəsi, ev 87, mənzil 22 ünvanında yaşayırdı.

XI Qızıl Ordu meydanında sovet ordusunun atəşi nəticəsində güllələnərək şəhid olmuşdur.

Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona "20 Yanvar şəhidi" fəxri adı verilmişdir.

**İsayev Müşviq Ağaəli oğlu**



1968-ci ildə Bakı şəhərində anadan olmuşdur. “Sağlamlıq” kooperativində işləyirdi.

Bakı şəhəri, Naxçıvanski küçəsi, ev 27, mənzil 89 ünvanında yaşayırdı.

Gənclik metrostansiyasının yaxınlığında sovet hərbçiləri tərəfindən güllələnərək şəhid olmuşdur.

Ağdaş şəhərində dəfn olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona “20 Yanvar şəhidi” fəxri adı verilmişdir.

**İsayev Rauf Sultanməcid oğlu**



25 sentyabr 1962-ci ildə Göyçay rayonunda anadan olmuşdur. Məişət kondisioneri zavodunda çilingər işləyirdi. Ailəli idi.

Bakı şəhəri, 4-cü Aşırım küçəsi, 161 ünvanında yaşamışdır.

Salyan qışlasının qarşısında güllələnərək şəhid olmuşdur.

Göyçayda, Əli Kərim adına parkda dəfn olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona“20 Yanvar şəhidi” adı verilmişdir.

**İsmayılov Cavad Yunus oğlu**



9 may 1962-ci ildə Bakı şəhərində anadan olmuşdur.

Bakı şüşə zavodunda fəhlə işləyirdi. Ailəli idi.

Bakı şəhəri, Tbilisi prospekti, ev 56, mənzil 9 ünvanında yaşayırdı.

XI Qızıl Ordu meydanında güllələnərək qətlə yetirilmişdir.

Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona "20 Yanvar şəhidi" adı verilmişdir.

**İsmayılov Məmmədəli Novruz oğlu**



1946-cı il anadan olmuşdur. 2 saylı taksimotor parkında taksi sürücüsü işləyirdi.

Güllələnərək şəhid olmuşdur.

Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona "20 Yanvar şəhidi" adı verilmişdir.

**İsmayılov Rəşid İslam oğlu**



27 avqust 1949-cu ildə Gürcüstan SSR-in Qardabani rayonunun Ağtəhlə kəndində anadan olmuşdur. Azərbaycan Dəmir Yolu İdarəsində dispetçer işləyirdi. Ailəli idi.

Bakı şəhəri, Biləcəri qəsəbəsi, Tbilisi şossesi, 5075-ci kvartal, ev 2a, mənzil 8 ünvanında yaşamışdır.

Atışma zamanı Biləcəri qəsəbəsindəki evində olub, atəş səslərinə və insanların qışqırığına çölə çıxıb. Güllələnib.

Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona “20 Yanvar şəhidi” adı verilmişdir.

**İsmayılov Tofiq Babaxan oğlu**



5 yanvar 1956-cı ildə Bakı şəhərində anadan olmuşdur. Nəsimi rayon Kommunal Təsərrüfat İdarəsinin istilik şəbəkəsində ocaqçı işləyirdi. Ailəli idi.

Bakı şəhəri, M. Cəlal küçəsi, ev 37, mənzil 24 ünvanında yaşamışdır.

1990-cı il yanvarın 20-də Tbilisi prospektindəki 16 nömrəli binanın qarşısında güllələnərək şəhid olmuşdur.

Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona “20 Yanvar şəhidi” adı verilmişdir.

**İsmayılov Yusif Tələt oğlu**



1958-ci il anadan olmuşdur. Maqnitofon kassetləri zavodunda işləyirdi.

Qoşunun qarşını almaq üçün həbsxanadan qaçarkən arxadan açılan atəş nəticəsində həlak olmuşdur.

**İsrayılov Ağanəzər Araz oğlu**



1 iyun 1960-cı ildə Şamaxı şəhərində anadan olmuşdur. Daxili işlər orqanlarında xidmət etmiş, milis leytenantı rütbəsi daşımışdır.

Bakı şəhəri, Sumqayıt şossesi, 10 ünvanında yerləşən yataqxanada yaşayırdı.

1990-cı il yanvarın 20-də — Sovet ordusunun xalqımıza qarşı həyata keçirdiyi qanlı hərbi təcavüz zamanı — Tbilisi prospektində güllələnərək şəhid olmuşdur.

Doğulduğu Şamaxı şəhərində dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona “20 Yanvar şəhidi” adı verilmişdir.

**Kazımov Əflatun Həşim oğlu**



1959-cu ildə Lənkəran rayonunun Kirdəni kəndində anadan olmuşdur. Bakı şəhərində yerləşən 28 nömrəli tikinti idarəsində fəhlə işləyirdi. Ailəli idi.

Bakı şəhəri, 8-ci kilometr yaşayış sahəsində, Zərdabi küçəsi, ev 2a ünvanında yaşamışdır.

1990-cı il yanvarın 20-də Moskva prospektindəki körpü yaxınlığında güllələnərək şəhid olmuşdur.

Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona "20 Yanvar şəhidi" adı verilmişdir.

**Kərimov Aleksandr Ramazan oğlu**



27 mart 1970-ci ildə Rusiya Federasiyasının Sverdlovsk vilayətinin Aqit kəndində anadan olmuşdur.

Bakı şəhəri, Montin qəsəbəsi, Yusifzadə küçəsi 41, mənzil 43 ünvanında yaşamışdır.

1990-cı ildə yanvarın 19-dan 20-ə keçən gecə Papanin küçəsində, təxminən səhər saat 6 radələrində KAMAZ markalı maşında yaralıları və həlak olanları daşıyarkən sovet əsgərləri tərəfindən atəşə tutulmuşdur. Qarın nahiyəsindən və sol buddan yaralanmışdır. Aparılmış dörd əməliyyata baxmayaraq, Aleksandr fevralın 5-də Semaşko adına xəstəxanada vəfat etmişdir.

Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona "20 Yanvar şəhidi" adı verilmişdir.

**Kərimov İlqar İsa oğlu**



22 avqust 1962-ci ildə Goranboy rayonunun Ağamalıoğlu kəndində anadan olmuşdur. Pirküşkül qəsəbəsində yerləşən broyler fabrikində işləyirdi. Ailəli idi.

Bakı şəhəri, Tbilisi prospekti, ev 7, mənzil 36 ünvanında yaşamışdır.

1990-cı il yanvarın 19-da Biləcəri qəsəbəsindəki Dəmir Yolu Xəstəxanasının yaxınlığında güllələnərək şəhid olmuşdur.

Doğulduğu Goranboy rayonunun 1 May kəndində dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona “20 Yanvar şəhidi” adı verilmişdir.

**Kərimov Oqtay Ayvaz oğlu**



21 mart 1964-cü ildə Ermənistan SSR-in Göyçə mahalının Ardanış kəndində (Krasnoselo rayonu) anadan olmuşdur. Bakı şəhərində yerləşən 28 nömrəli təmir-tikinti idarəsində fəhlə işləyirdi.

Bakı şəhəri, Gənclər dostluğu küçəsi, ev 41, mənzil 21 ünvanında yaşayırdı.

1990-cı il yanvarın 19-da "Gənclik" metrostansiyasının yaxınlığında güllələnərək şəhid olmuşdur.

Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona "20 Yanvar şəhidi" adı verilmişdir.

## Marxevka Aleksandr Vitalyeviç



1958-ci ildə Bakı şəhərində anadan olmuşdur. Tibb sahəsində fəaliyyət göstərmiş, Buzovna təcili yardım məntəqəsində həkim işləyirdi. Ailəli idi.

Bakı şəhəri, 14-cü Aşırım küçəsi 11/15, mənzil 61 ünvanında yaşamışdır.

1990-cı il yanvarın 20-də Türkan şossesində güllələnərək şəhid olmuşdur.

Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona "20 Yanvar şəhidi" adı verilmişdir.

**Meyeroviç Yan Maksimoviç**



2 yanvar 1955-ci ildə Bakı şəhərində anadan olmuşdur. Moskvada fəaliyyət göstərən "Molodyojnıy" kooperativinin Bakı filialında direktor vəzifəsində çalışmışdır. Ailəli idi.

Bakı şəhəri, 1 May küçəsi 187 ünvanında yaşamışdır.

1990-cı il yanvarın 19-da — Sovet qoşunlarının Azərbaycanda həyata keçirdiyi hərbi təcavüz zamanı — Bakı-Binə yolunun Suraxanı qəsəbəsi ərazisində güllələnərək şəhid olmuşdur.

Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona "20 Yanvar şəhidi" adı verilmişdir.

**Məmmədov Anar Vilen oğlu**



17 may 1972-ci ildə Bakı şəhərində anadan olmuşdur.

Sabunçu rayonunda yaşayırdı.

Zığ şosesinin yaxınlığındakı Radiozavod ərazisində sovet ordusunun əsgərləri tərəfindən amansızcasına döyülmüşdür. Sabunçu xəstəxanasına şəhid olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona “20 Yanvar şəhidi” fəxri adı verilmişdir.

**Məmmədov Eldar Zeynal oğlu**



13 may 1966-cı ildə Bakı şəhərində anadan olmuşdur. 5 nömrəli çörək zavodunda fəhlə işləyirdi.

Bakı şəhəri, Musabəyov küçəsi, 2-ci Yasamal, ev 10 ünvanında yaşamışdır.

1990-cı il yanvarın 20-də — Azərbaycan xalqına qarşı həyata keçirilmiş qanlı hərbi təcavüz zamanı — Bakı şəhərində yerləşən “Olimp” mağazasının yaxınlığında güllələnərək şəhid olmuşdur.

Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona “20 Yanvar şəhidi” adı verilmişdir.

**Məmmədov Süleyman Fərman oğlu**



20 aprel 1956-cı il Bakıda anadan olmuşdur. 3 saylı taksi parkında sürücü işləyirdi. Ailəli idi.

1990-cı ilin 20 Yanvar gecəsi tankdan atılan güllələrlə yaralanmış və "Semaşko" xəstəxanasında dünyasını dəyişmişdir.

Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

**Məmmədov İbiş Behbud oğlu**



13 iyun 1961-ci ildə Ermənistan SSR-in Qafan rayonunda anadan olmuşdur. Ailəli idi.

Bakı şəhəri, Nigar Rəfibəyli küçəsi 7 ünvanında yaşamışdır.

1990-cı il yanvarın 20-də — Sovet qoşunlarının Azərbaycan xalqına qarşı törətdiyi qanlı hərbi təcavüz zamanı — Salyan qışlası yaxınlığında güllələnərək şəhid olmuşdur.

Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona “20 Yanvar şəhidi” adı verilmişdir.

**Məmmədov İlham İslam oğlu**



30 dekabr 1951-ci ildə Bakı şəhərində anadan olmuşdur. Ailəli idi.

Bakı şəhəri, S.Vurğun küçəsi, ev 116, mənzil 50 ünvanında yaşamışdır.

1990-cı il yanvarın 20-də — 20 Yanvar faciəsi zamanı — fiziki zorakılığa məruz qalaraq şəhid olmuşdur.

Bakı şəhər qəbiristanlığında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 6 fevral 2008-ci il tarixli fərmanı ilə ona "20 Yanvar şəhidi" adı verilmişdir.

**Məmmədov Kamal Seyidqurban oğlu**



13 dekabr 1955-ci ildə Bakı şəhərində anadan olmuşdur. Bakı şəhəri, Maştağa qəsəbəsi, 26 Bakı komissarı küçəsi, ev 57 ünvanında yaşamışdır.

1990-cı il yanvarın 20-də — Sovet ordusunun azərbaycanlılara qarşı həyata keçirdiyi qanlı təcavüz zamanı — Suraxanı qəsəbəsinin yaxınlığında güllələnərək şəhid olmuşdur.

Maştağa qəsəbəsində, “Seyidlər” qəbiristanlığında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona “20 Yanvar şəhidi” adı verilmişdir.

## Məmmədov Mehman Sahibəli oğlu



Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona “20 Yanvar şəhidi” adı verilmişdir.

**Məmmədov Məmməd Yarməmməd oğlu**



2 fevral 1959-cu ildə Bakı şəhərində anadan olmuşdur. O, 2 nömrəli avtobus parkında sürücü işləyirdi. Ailəli idi.

Bakı şəhəri, 5-ci mikrorayon, Tağızadə küçəsi, ev 60, mənzil 15 ünvanında yaşamışdır.

1990-cı il yanvarın 20-də — Sovet ordusunun Azərbaycan xalqına qarşı həyata keçirdiyi qanlı hərbi təcavüz zamanı — L. Şmidt adına zavodun yaxınlığında güllələnərək şəhid olmuşdur.

Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona “20 Yanvar şəhidi” adı verilmişdir.

**Məmmədov Rahim Vəliağa oğlu**



1969-cu il Lənkəran şəhərində anadan olmuşdur.

"Arzu" kooperativində fəhlə işləyirdi.

Meşədə güllələnərək həlak olmuşdur.

Lənkəranda dəfn olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona "20 Yanvar şəhidi" adı verilmişdir.

**Məmmədov Səxavət Heydər Əli oğlu**



10 aprel 1958-ci ildə Bakı şəhərində anadan olmuşdur. Bakıdakı 4 №-li avtonəqliyyat dəstəsində sürücü işləyirdi.

Bakı şəhəri, Ə. Ələkbərov küçəsi 20 ünvanında yaşamışdır.

1990-cı il yanvarın 20-də şəhid olmuşdur.

Digah kənd qəbiristanlığında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona “20 Yanvar şəhidi” adı verilmişdir.

**Məmmədov Şahin Zahid oğlu**



31 yanvar 1972-ci ildə Lənkəran şəhərində anadan olmuşdur.

Lənkəran şəhəri, Lənkəran küçəsi, ev 28 ünvanında yaşayırdı.

1990-cı il yanvarın 26-da — Sovet hərbi birləşmələrinin ölkənin müxtəlif bölgələrində həyata keçirdiyi qanlı təcavüz zamanı — Hoftoni və Kirov kəndləri arasında yerləşən ərazidə güllələnmiş və daha sonra yandırılaraq qətlə yetirilmişdir.

Doğulduğu Lənkəran şəhərində dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona “20 Yanvar şəhidi” adı verilmişdir.

**Məmmədov Vaqif Məmməd oğlu**



Lənkəran şəhərində anadan olmuşdur. Ailəli idi.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona “20 Yanvar şəhidi” adı verilmişdir.

**Məmmədov Vidadi Üzeyir oğlu**



1949-cu ildə Şamaxı şəhərində anadan olmuşdur. Uzun illər Cənubi Xəzər Balıqçılıq Hövzəsi İdarəsində baş mühəndis vəzifəsində çalışmışdır. Ailəli idi.

Bakı şəhəri, 9-cu mikrorayon, Pişəvəri küçəsi, ev 4, mənzil №63 ünvanında yaşayırdı.

1990-cı il yanvarın 20-də sovet ordusunun Bakıya hərbi müdaxiləsi zamanı, XI Qızıl Ordu meydanında güllələnərək həlak olmuşdur.

Doğulduğu Şamaxı şəhərində dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona "20 Yanvar şəhidi" adı verilmişdir.

**Məmmədova Larisa Fərman qızı**



11 avqust 1977-ci ildə Bakı şəhərində anadan olmuşdur. Bakı şəhərində yerləşən 134 nömrəli tam orta məktəbin 7v sinif şagirdi idi.

Ailəsi ilə birlikdə Bakı şəhəri, Muxtadır küçəsi 8 ünvanında yaşayırdı.

1990-cı il yanvarın 20-də Sovet ordusunun Azərbaycana qarşı həyata keçirdiyi hərbi təcavüz zamanı L. Şmidt adına zavodun yaxınlığında, "İkarus" avtobusunda ürək nahiyəsindən güllə yarası alaraq şəhid olmuşdur.

Şəhidlər xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona "20 Yanvar şəhidi" fəxri adı verilmişdir.

**Məmmədova Rəna Təyyar qızı**

Azərbaycan Respublikası Prezidentinin 16 may 2017-ci il tarixli fərmanı ilə ona “20 Yanvar şəhidi” fəxri adı verilmişdir.

**Məmmədova Svetlana Həmid qızı**



1939-cu ildə Naxçıvan şəhərində anadan olmuşdur. Professor və elmlər doktoru kimi fəaliyyət göstərmişdir. Ailəli idi.

Bakı şəhəri, Barinov küçəsi, ev 4, mənzil 20 ünvanında yaşayırdı.

1990-cı il yanvarın 20-də Sovet ordusunun Bakı-Sumqayıt yolunun 22-ci kilometrliyində həyata keçirdiyi hərbi təcavüz zamanı, içərisində olduğu avtomobilin üzərindən tankla keçilməsi nəticəsində həlak olmuşdur.

Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona "20 Yanvar şəhidi" fəxri adı verilmişdir.

**Mirzəyev Azad Əliheydər oğlu**



1961-ci il yanvarın 22-də Lənkəran şəhərində anadan olmuşdur. Əmək fəaliyyətini Bakı şəhərində davam etdirərək, Nəsimi Rayon İctimai İaşə İdarəsində işləyirdi.

Bakı şəhəri, İnşaatçılar prospekti 28a, mənzil 29 ünvanında yaşayırdı.

Atışma səslərini eşidib anası ilə birlikdə eyvana çıxıb. Açıq qapıdan otağa bir neçə güllə daxil olub. Ölümcül yaralanıb.

Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona "20 Yanvar şəhidi" fəxri adı verilmişdir.

**Mirzəyev Elçin Hüseynqulu oğlu**



1961-ci ildə Bakı şəhərində anadan olmuşdur. Bakı Şəhər Səhiyyə İdarəsində inspektor işləyirdi. Ailəli idi.

Bakı şəhəri, Kirov prospekti, ev 29, mənzil 68 ünvanında yaşayırdı.

1990-cı il yanvarın 20-də Sovet ordusunun Azərbaycan xalqına qarşı həyata keçirdiyi hərbi təcavüz zamanı Sabunçu qəsəbəsinin yaxınlığında güllələnərək şəhid olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona “20 Yanvar şəhidi” fəxri adı verilmişdir.

**Mirzəyev Vaqif Səməd oğlu**



1959-cu il noyabrın 12-də Bakı şəhərinin Binə qəsəbəsində anadan olmuşdur. Binə qəsəbəsində yerləşən elektrik qovşağında montyor işləyirdi. Ailəli idi.

Bakı şəhəri, Binə qəsəbəsi, Rəhmanov küçəsi 1a ünvanında yaşayırdı.

1990-cı il yanvarın 20-də Sovet ordusunun Azərbaycan xalqına qarşı həyata keçirdiyi qanlı hərbi təcavüz zamanı Binə–Mərdəkan yolu istiqamətində güllələnərək şəhid olmuşdur.

Binə qəsəbə qəbiristanlığında dəfn olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona “20 Yanvar şəhidi” fəxri adı verilmişdir.

**Mövlüdov Fuad Fərhad oğlu**



1968-ci ildə anadan olmuşdur. Yanğınsöndürmə Dəstəsində xidmət edirdi.

Bakı şəhəri, Cənubi DRES qəsəbəsi, XX qurultay küçəsi, ev 20, mənzil 18 ünvanında yaşayırdı.

1990-cı il yanvarın 25-də — 20 Yanvar hadisələrindən sonra baş verən silahlı toqquşmalar zamanı — Şimali DRES-in yaxınlığında güllələnərək qətlə yetirilmişdir.

Şüvəlan qəbiristanlığında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona “20 Yanvar şəhidi” fəxri adı verilmişdir.

**Muxtarov Rasim Mustafa oğlu**



1958-ci il iyulun 10-da Bakı şəhərində anadan olmuşdur. Bakıdakı Məişət Kondisionerləri Zavodunda çilingər işləyirdi. Ailəli idi.

Bakı şəhəri, Hüsü Hacıyev küçəsi 35, mənzil 32 ünvanında yaşayırdı.

1990-cı il yanvarın 20-də Sovet ordusunun Azərbaycana qarşı həyata keçirdiyi qanlı hərbi müdaxilə zamanı, Tağızadə küçəsi ilə Pişəvəri küçələrinin kəsişdiyi ərazidə güllələnərək şəhid olmuşdur.

Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona “20 Yanvar şəhidi” fəxri adı verilmişdir.

**Muradov Mehman Əsəd oğlu**



1961-ci ildə Göyçay rayonunda anadan olmuşdur. Bakı şəhərində əmək fəaliyyətini davam etdirərək "Azərelektroterm" Elm İstehsal Birliyində fəhlə işləyirdi. Ailəli idi.

Bakı şəhəri, Güzdək qəsəbəsi, Hüseynzadə küçəsi 7 ünvanında yaşayırdı.

1990-cı il yanvarın 20-də Sovet ordusunun Azərbaycan xalqına qarşı həyata keçirdiyi hərbi təcavüz zamanı Salyan qışlasının yaxınlığında güllələnərək şəhid olmuşdur.

Göyçay rayonunda dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona "20 Yanvar şəhidi" fəxri adı verilmişdir.

**Mursaqulov İsmayıl Həsən oğlu**



1939-cu il noyabrın 13-də Gürcüstan SSR-in Marneuli rayonunun Qızılhacılı kəndində anadan olmuşdur. Sumqayıt Polimer Materialları İnstitutunda şöbə müdiri vəzifəsində işləyirdi. Ailəli idi.

Bakı şəhəri, Ə. Ələkbərov küçəsi, ev 97, mənzil 118 ünvanında yaşayırdı.

1990-cı il yanvarın 24-də — 20 Yanvar hadisələrindən bir neçə gün sonra — Bakı–Sumqayıt yolunun 22-ci kilometrliyində içərisində olduğu avtomobilin üzərindən Sovet ordusunun hərbi texnikasının keçməsi nəticəsində faciəli şəkildə həlak olmuşdur.

Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə “20 Yanvar şəhidi” fəxri adına layiq görülmüşdür.

**Musayev Tofiq Ayvaz oğlu**

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona "20 Yanvar şəhidi" fəxri adı verilmişdir.

**Mustafayev Mahir Vaqif oğlu**



1968-ci il noyabrın 25-də anadan olmuşdur. Bakı şəhərindəki 2 nömrəli avtobus parkında sürücü işləyirdi.

Bakı şəhəri, Xuluflu küçəsi, ev 26a, mənzil 4 ünvanında yaşayırdı.

1990-cı il yanvarın 20-də — Sovet ordusunun Azərbaycan xalqına qarşı həyata keçirdiyi hərbi təcavüz zamanı — Papanin küçəsindəki körpünün yaxınlığında güllələnərək şəhid olmuşdur.

Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona “20 Yanvar şəhidi” fəxri adı verilmişdir.

**Nəsibov Allahyar İsgəndər oğlu**



1952-ci il aprelin 6-da Ermənistan SSR-in Amasiya rayonunun Oxçuoğlu kəndində anadan olmuşdur. Fəhlə kimi işləyib. Ailəli idi.

Bakı şəhəri, Vorovski qəsəbəsi, 22-ci Dağlıq küçəsi, ev 3 ünvanında yaşayırdı.

1990-cı il yanvarın 19-da — faciədən bir gün əvvəl — Bakı şəhərində yerləşən XI Qızıl Ordu metrostansiyasının yaxınlığında Sovet ordusu tərəfindən açılan atəş nəticəsində güllələnərək şəhid olmuşdur.

Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona “20 Yanvar şəhidi” fəxri adı verilmişdir.

**Nəsirov Yanvar Şirəli oğlu**



1957-ci il yanvarın 1-də Ağdam rayonunun Gülablı kəndində anadan olmuşdur. Bakı şəhərində Məişət kondisionerləri zavodunun nəzdində fəaliyyət göstərən "Sərin" kooperativində işləyirdi. Ailəli idi.

Bakı şəhəri, Ağa Nemətulla küçəsi, keçid 1, ev 6 ünvanında yaşayırdı.

1990-cı il yanvarın 20-də Sovet ordusunun Azərbaycanda həyata keçirdiyi hərbi təcavüz zamanı "Olimp" mağazasının yaxınlığında güllələnərək şəhid olmuşdur.

Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona "20 Yanvar şəhidi" fəxri adı verilmişdir.

## Nikolayenko Alla Alekseyevna

1972-ci ildə anadan olmuşdur. Bakı şəhəri, “Krasnı Vostok” şəhərciyi, ev 6, mənzil 22 ünvanında yaşayırdı.

1990-cı il yanvarın 20-də Sovet ordusunun Azərbaycan xalqına qarşı həyata keçirdiyi qanlı hərbi təcavüz zamanı yaşadığı mənzildə güllələnərək şəhid olmuşdur.

Bakıda “Qurd qapısı” qəbiristanlığında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona “20 Yanvar şəhidi” fəxri adı verilmişdir.

**Nişşenko Andrey Aleksandroviç**



6 may 1972-ci ildə Bakı şəhərində anadan olmuşdur. 2 №-li Dəmiryol məktəbinin 3-cü kurs tələbəsi idi.

Bakı şəhəri, B. Bağırov küçəsi 7, ev 37 ünvanında yaşayırdı.

20 yanvar 1990-cı il tarixində Sovet qoşunlarının Azərbaycana hərbi müdaxiləsi zamanı, “Xəzər” kinoteatrının yaxınlığında güllə ilə vurularaq şəhid olmuşdur.

Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona “20 Yanvar şəhidi” fəxri adı verilmişdir.

**Novruzbəyli Ağabəy Oqtay oğlu**



23 may 1971-ci ildə Bakı şəhərində anadan olmuşdur. M. Əzizbəyov adına Azərbaycan Sənaye Universitetinin kimya-texnologiya fakültəsinin tələbəsi idi.

Bakı şəhəri, Əzizbəyov küçəsi 27 ünvanında yaşayırdı.

19 may 1990-cı ildə faciəli şəkildə həlak olmuşdur — həmin dövrün faciəli hadisələrinin yaratdığı ağır psixoloji təzyiq və nəticələr fonunda zəhər qəbul edərək intihar etmişdir.

Pirşağı qəbiristanlığında dəfn olunub.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona “20 Yanvar şəhidi” fəxri adı verilmişdir.

## Novruzov Tofiq Heydər oğlu

Azərbaycan Respublikası Prezidentinin 6 fevral 2008-ci il tarixli fərmanı ilə ona "20 Yanvar şəhidi" fəxri adı verilmişdir.

## Nuriyev Zahir Zəbi oğlu



1971-ci il sentyabın 8-də Bakı şəhərində anadan olmuşdur. 1988-ci ildə tam orta məktəbi bitirmiş, indiki Azərbaycan Texniki Universitetinin Maşınqayırma fakültəsinə qəbul olmuşdur.

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə evdən çıxıb bir daha geri dönməyib.

2000-ci ildə isə şəkli Şəhidlər Xiyabanında əbədiləşdirilib.

1997-ci ildə ona şəhid statusu verilir.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona “20 Yanvar şəhidi” fəxri adı verilmişdir.

## Orucov Rafiq və Rəfael Ümid oğlu qardaşları



“Gənclik” metrostansiyasına gedən yolda qardaşlar rus əsgərlərinin tanklar və zirehli maşınlarla mövqe tutduğunu görüblər. Onlar yanar maye doldurulmuş şüşə qabları zirehli texnikanın üzərinə atıblar. Bunu görən əsgərlər avtomatlardan onlara atəş açıblar. Nəticədə zirehli maşınlardan ikisi yandırılıb.

Hadisə zamanı qardaşlar qəhrəmancasına şəhid olublar.

Azərbaycan Respublikası Prezidentinin 27 sentyabr 2003-ci il tarixli fərmanı ilə onlara “20 Yanvar şəhidi” fəxri adı verilmişdir.

**Orucov Şəmsəddin Əbilhəsən oğlu**



1950-ci ildə Sabirabad rayonunun Cavad kəndində anadan olmuşdur. O, Bakı İdman Malları Fabrikində mühəndis işləyirdi. Ailəli idi.

Bakı şəhəri, İnqilab küçəsi, 1008-ci kvartal, mənzil 66 ünvanında yaşayırdı.

1990-cı il yanvarın 23-də, sovet qoşunlarının Azərbaycana qarşı həyata keçirdiyi qanlı hərbi müdaxilə zamanı, evində güllələnərək şəhid olmuşdur.

Neftçala rayonunun Sovetabad kənd qəbiristanlığında dəfn edilmişdir.

Azərbaycan Respublikasının Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona "20 Yanvar şəhidi" fəxri adı verilmişdir.

**Poladi Saleh Əliqulu oğlu**



6 dekabr 1968-ci ildə Bakı şəhərində anadan olmuşdur. Sənaye malları kooperativində işləyirdi.

Bakı şəhəri, Tbilisi prospekti, ev 54, mənzil 60 ünvanında yaşayırdı.

1990-cı il yanvarın 20-də, sovet qoşunlarının Azərbaycana qarşı həyata keçirdiyi hərbi təcavüz zamanı, XI Qızıl Ordu meydanında güllələnərək şəhid olmuşdur.

Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona "20 Yanvar şəhidi" fəxri adı verilmişdir.

**Qarayev İlqar Əli oğlu**



10 sentyabr 1959-cu ildə Bakı şəhərində anadan olmuşdur. Bakı Metropoliten İdarəsində mexanik işləyirdi.

Bakı şəhəri, M. Sübhi küçəsi, dalan 8, ev 2 ünvanında yaşayırdı.

1990-cı il yanvarın 20-də, sovet qoşunlarının Bakıya hərbi müdaxiləsi zamanı, Salyan qışlası yaxınlığında güllələnərək şəhid olmuşdur.

Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona "20 Yanvar şəhidi" fəxri adı verilmişdir.

**Qasımov Abbas Şəmməd oğlu**



10 iyun 1966-cı ildə Ermənistan SSR-in Amasiya rayonunun Balıqlı kəndində anadan olmuşdur. Fəhlə işləyirdi.

Bakı şəhəri, 2-ci mikrorayon, Cəbiyev küçəsi, ev 25, mənzil 36 ünvanında yaşayırdı.

1990-cı il yanvarın 20-də sovet qoşunlarının Bakıya yeridilməsi zamanı XI Qızıl Ordu meydanında güllə yarası almış və yerləşdirildiyi Respublika Xəstəxanasında şəhid olmuşdur.

Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona “20 Yanvar şəhidi” fəxri adı verilmişdir.

**Qasımov Yusif İbrahim oğlu**



1948-ci ildə Naxçıvan şəhərində anadan olmuşdur. Bakı şəhərində yerləşən "Şərur" kafesində fəhlə işləyirdi. Ailəli idi.

Bakı şəhəri, Malıgin küçəsi 8, mənzil 5 ünvanında yaşayırdı.

1990-cı il yanvarın 19-da, sovet qoşunlarının Azərbaycana qarşı həyata keçirdiyi hərbi müdaxilə zamanı "Xəzər" kinoteatrının yaxınlığında güllələnərək şəhid olmuşdur.

Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona "20 Yanvar şəhidi" fəxri adı verilmişdir.

**Qeybullayev Elçin Suyəddin oğlu**



1968-ci ildə Quba rayonunun Qalabı-Qışlaq kəndində anadan olmuşdur. Bakı Baş Tikinti İdarəsinin 20 №-li tikinti sahəsində fəhlə işləyirdi.

Bakı Baş Tikinti İdarəsinin yataqxanasında qalırdı.

1990-cı il yanvarın 20-də, sovet qoşunlarının Bakıya hərbi müdaxiləsi zamanı Salyan qışlasının yaxınlığında güllələnərək şəhid olmuşdur.

Doğulduğu Quba rayonunda dəfn olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona "20 Yanvar şəhidi" fəxri adı verilmişdir.

**Qayıbov Ələskər Yusif oğlu**



15 mart 1966-cı ildə Gürcüstan SSR-in Qaraçöp mahalının Yormuğanlı kəndində anadan olmuşdur. Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun tələbəsi idi.

Gürcüstan SSR-in Saqareço rayonunun Yormuğanlı kəndində yaşayırdı.

1990-cı il yanvarın 21-də Bakı şəhərində baş verən faciəli hadisələr zamanı "Gənclik" metrosunun yaxınlığında güllə yarası almış, yerləşdirildiyi 5 nömrəli xəstəxanada şəhid olmuşdur.

Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona "20 Yanvar şəhidi" fəxri adı verilmişdir.

**Qəniyev Mirzə Rzabala oğlu**



13 sentyabr 1958-ci ildə Bakı şəhərində anadan olmuşdur. Bakı Su Kəmərləri İdarəsində çilingər işləyirdi. Ailəli idi.

Bakı şəhəri, 1-ci Alatava qəsəbəsi, ev 48 ünvanında yaşayırdı.

1990-cı il yanvarın 20-də sovet qoşunlarının Bakı şəhərinə yeridilməsi zamanı güllə yarası almış və 19 fevral 1990-cı ildə N. Semaşko adına xəstəxanada vəfat etmişdir.

Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona “20 Yanvar şəhidi” fəxri adı verilmişdir.

**Qocamanov Əliyusif Bilal oğlu**



1 iyun 1933-cü ildə Bakı şəhərində anadan olmuşdur. "Naxçıvan" mehmanxanasının qarşısındakı qəzet köşkündə satıcı işləyirdi. Ailəli idi.

Bakı şəhəri, 565-ci kvartal, ev 5, mənzil 45 ünvanında yaşayırdı.

1990-cı il yanvarın 20-də, sovet qoşunlarının Azərbaycana qarşı həyata keçirdiyi hərbi təcavüz zamanı "Xəzər" kinoteatrının yaxınlığında güllə yarası almış və yerləşdirildiyi N. Semaşko adına xəstəxanada vəfat etmişdir.

Bakı şəhəri, Pirşağı qəsəbəsində dəfn olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona "20 Yanvar şəhidi" fəxri adı verilmişdir.

**Quliyev Səxavət Balay oğlu**



1940-cı ildə Füzuli rayonunun İsalı kəndində anadan olmuşdur. Bakı şəhərində Nəsimi Rayon İstehlak Cəmiyyətində mağaza müdiri idi. Ailəli idi.

Bakı şəhəri, Bakıxanov küçəsi, ev 7/1 ünvanında yaşayırdı.

1990-cı il yanvarın 19-da sovet qoşunlarının ölkəmizə qarşı törətdiyi qanlı hərbi müdaxilə zamanı güllə yarası almış, 5 nömrəli xəstəxanada vəfat etmişdir.

Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona "20 Yanvar şəhidi" fəxri adı verilmişdir.

**Rəhimov Rəhim İsmayıl oğlu**

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə “20 Yanvar şəhidi” fəxri adı verilmişdir.

**Rəhmanov İslam Oqtay oğlu**



14 oktyabr 1968-ci ildə Ramana qəsəbəsində anadan olmuşdur. 1 nömrəli tikinti-quraşdırma idarəsində fəhlə işləyirdi.

Ramana qəsəbəsi, Orconikidze küçəsi 14 ünvanında yaşayırdı.

Yanvarın 19-da, təxminən gecə saat 2-də o, atəş səslərini eşidərək küçəyə çıxdı. Bu zaman hərbi zirehli maşınlar insanlara atəş açmağa başladı. İslam hər iki ayağından və sağ qolundan yaralandı.

1990-cı il yanvarın 29-da şəhid olmuşdur.

Bakı şəhərinin Ramana qəbiristanlığında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona “20 Yanvar şəhidi” fəxri adı verilmişdir.

**Rüstəmov Rövşən Məmməd oğlu**



1961-ci ildə Bakı şəhərində anadan olmuşdur. O, 204 nömrəli tikinti-quraşdırma idarəsində fəhlə işləyirdi. Ailəli idi.

Bakı şəhəri, 8-ci kilometr qəsəbəsi, Tələbə küçəsi, ev 51, mənzil 47 ünvanında yaşayırdı.

Yanvarın 19-dan 20-nə keçən gecə Əzizbəyov metrosu istiqamətində, Sabunçu qəsəbəsinə gedən yolun üstündə idarə etdiyi "Tatra" maşınında çoxsaylı avtomat atəşlərinə məruz qalmışdır. Caparadze adına xəstəxanaya çatdırılsa da, sinəsinin sağ tərəfində çoxsaylı güllə yaraları almışdır və nəticədə xəstəxanada həyatını itirmişdir.

Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona "20 Yanvar şəhidi" adı verilmişdir.

## Rzayev Azad Allahverdi oğlu



10 oktyabr 1965-ci ildə Bakı şəhərində anadan olmuşdur. Dərin Dəniz Özülləri Zavodunda işləyirdi. Ailəli idi.

Bakı şəhəri, Qobustan qəsəbəsi, 2-ci sahə, ev 7 ünvanında yaşayırdı.

1990-cı il 20 Yanvar faciəsi zamanı, Bakı şəhərinin Qobustan qəsəbəsində sovet qoşunları tərəfindən güllələnərək qətlə yetirilmişdir.

Qobustan qəbiristanlığında dəfn olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona "20 Yanvar şəhidi" adı verilmişdir.

**Sadıqov Yusif Allahverdi oğlu**



1964-cü ildə Ermənistan SSR-in Krasnoselo rayonunun Cil kəndində anadan olmuşdur. Azərbaycan Dövlət Universitetində aspirant idi.

Bakı şəhəri, 4-cü Aşırım küçəsi 89 ünvanında yaşayırdı.

1990-cı il 20 Yanvar hadisələri zamanı, Salyan kazarmasının yaxınlığında sovet qoşunları tərəfindən qəddarlıqla qətlə yetirilmişdir.

Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona “20 Yanvar şəhidi” adı verilmişdir.

**Salahov Şərafəddin Müzəffər oğlu**



1963-cü ildə Bakı şəhərində anadan olmuşdur. Nəşriyyatda işləyirdi.

Bakı şəhəri, 3-cü Yasamal, ev 134v ünvanında yaşayırdı.

1990-cı il 20 Yanvar faciəsi zamanı, Bakı şəhərinin 3-cü Yasamal yaşayış sahəsində sovet qoşunları tərəfindən güllələnərək şəhid olmuşdur.

Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona "20 Yanvar şəhidi" adı verilmişdir.

**Salayeva Sevda Məmmədağa qızı**

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona “20 Yanvar şəhidi” adı verilmişdir.

**Semyonov Vladimir Aleksandroviç**



1947-ci ildə Bakı şəhərinin Zabrat qəsəbəsində anadan olmuşdur. Ailəli idi.

Bakı şəhəri, Ağa Nemətulla küçəsi 25 ünvanında yaşayırdı.

1990-cı il 20 Yanvar faciəsi zamanı Tbilisi prospektində sovet qoşunları tərəfindən güllə yarası almış və bir neçə gün sonra hərbi hospitalda vəfat etmişdir.

Zabrat qəsəbəsində dəfn olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona “20 Yanvar şəhidi” adı verilmişdir.

**Səfərov Vəfadar Ağamirzə oğlu**



8 mart 1923-cü ildə anadan olmuşdur. Təqaüdçü idi. Ailəli idi və Bakı şəhəri, Mətbuat prospekti, ev 35, mənzil 61 ünvanında yaşayırdı.

1990-cı il 20 Yanvar faciəsi zamanı, Qarayev adına xəstəxananın yaxınlığında sovet qoşunları tərəfindən güllələnərək şəhid olmuşdur.

Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona “20 Yanvar şəhidi” adı verilmişdir.

**Şıxnəbiyev Məmmədəli Mədət oğlu**



1946-cı ildə Bakı şəhərində anadan olmuşdur. Ailəli idi.

1990-cı il 20 Yanvar faciəsi zamanı rus polkovniki tərəfindən başından yaralanmışdır. Güllə yarasından vəfat etmişdir.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona “20 Yanvar şəhidi” adı verilmişdir.

**Şərifov Mürvət Rəhim oğlu**



1932-ci ildə Ermənistan SSR-in Qafan rayonunun Müsəlləm kəndində anadan olmuşdur. Ailəli idi.

Bakı şəhəri, R. Behbudov küçəsi 77, mənzil 12 ünvanında yaşayırdı.

1990-cı il 20 Yanvar faciəsi zamanı sovet qoşunları tərəfindən güllələnərək ağır yaralanmış və N. Semaşko adına xəstəxanada vəfat etmişdir.

Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona “20 Yanvar şəhidi” adı verilmişdir.

**Tokarev Vladimir İvanoviç**



1954-cü ildə Bakı şəhərində anadan olmuşdur. Taksimotor parkında sürücü işləyirdi. Ailəli idi.

Bakı şəhəri, Qorki küçəsi 18, mənzil 17 ünvanında yaşayırdı.

Bakı şəhəri yaxınlığında – Aeroport ərazisində sovet qoşunları tərəfindən güllələnərək şəhid olmuşdur.

Balaxanı qəsəbəsində dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona "20 Yanvar şəhidi" adı verilmişdir.

**Tuxtamışov Fərqat Şərifullayeviç**



29 oktyabr 1958-ci ildə Bakı şəhərində anadan olmuşdur. Bakı Elektrik Maşınqayırma Zavodunda yığıcı çilingər işləyirdi.

Bakı şəhəri, Həsənoğlu küçəsi, ev 12a, mənzil 81 ünvanında yaşayırdı.

1990-cı il 20 Yanvar faciəsi zamanı Salyan qışlası yaxınlığında sovet qoşunları tərəfindən güllələnərək şəhid olmuşdur.

Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona "20 Yanvar şəhidi" adı verilmişdir.

**Turabov Tengiz Məmməd oğlu**



1966-cı ildə Gürcüstan SSR-in Bolnisi rayonunun Kəpənəkçi kəndində anadan olmuşdur. Tələbə idi.

İrkutsk vilayəti, Tayşet şəhəri, Matrosov küçəsi 52 ünvanında yaşayırdı.

1990-cı il 20 Yanvar faciəsi zamanı həlak olmuşdur.

Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona "20 Yanvar şəhidi" adı verilmişdir.

**Yaqubov Nüsrət İsmayıl oğlu**



1958-ci ildə Bakı şəhərinin Zirə kəndində anadan olmuşdur. Dübəndi Neftboşalma bazasında operator işləyirdi. Ailəli idi.

Bakı şəhəri, Zirə qəsəbəsi, C. Məmmədquluzadə küçəsi, döngə 9, ev 15 ünvanında yaşayırdı.

Yanvarın 19-u gecəsi Qala kəndindən öz şəxsi “Jiquli” markalı maşınında evə gedərkən hərbi hissənin yanında əsgərlər tərəfindən atəşə tutulub. Bir müddət burada köməksiz qalıb və xeyli qan itirib. Mərdəkandakı 26 nömrəli xəstəxanaya aparılıb. Aparılan cərrahiyyə əməliyyatı da kömək etməyib. Yanvarın 22-də vəfat edib.

Zirə kəndində dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona “20 Yanvar şəhidi” adı verilmişdir.

**Yefimiçev Boris Vasilyeviç**



15 yanvar 1945-ci ildə Bakı şəhərində anadan olmuşdur. Azərbaycan Korlar Cəmiyyətinin trikotaj fabrikində işləyirdi.

Bakı şəhəri, Nərimanov prospekti, 577-ci məhəllə, ev 89, mənzil 31 ünvanında yaşayırdı.

1990-cı il yanvarın 20-də axşam saat 22:00-da evdən çıxıb və saat 23:00-da iki nəfər onu yaralı halda evə gətirib. Məlum olub ki, əvvəlcə süngü ilə, sonra avtomatla vurulub. Xəstəxanaya aparılsa da, yanvarın 21-də vəfat edib.

Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona "20 Yanvar şəhidi" adı verilmişdir.

**Yusupov Oleq Kərimoviç**



28 fevral 1944-cü ildə Bakı şəhərində anadan olmuşdur. 1 nömrəli hərbiləşdirilmiş yanğın dəstəsində sürücü işləyirdi. Ailəli idi.

Bakı şəhəri, Əhmədli qəsəbəsi, Şıxlinski küçəsi, keçid 828, ev 57, mənzil 133 ünvanında yaşayırdı.

1990-cı il 20 Yanvar tarixində “Naxçıvan” mehmanxanasının yaxınlığında sovet qoşunları tərəfindən güllələnərək şəhid olmuşdur.

Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona “20 Yanvar şəhidi” adı verilmişdir.

**Zülalov İsbəndiyar Adil oğlu**



5 dekabr 1963-cü ildə Bakı şəhərində anadan olmuşdur. Geoloji Kəşfiyyat İdarəsində fəhlə işləyirdi. Ailəli idi.

Bakı şəhəri, R. Məmmədov küçəsi 4, mənzil 4 ünvanında yaşayırdı.

1990-cı il 19 yanvar tarixində 1 nömrəli taksi maşınları parkının yaxınlığında sovet qoşunları tərəfindən güllələnərək şəhid olmuşdur.

Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə ona “20 Yanvar şəhidi” adı verilmişdir.